# ÜZ HƏRƏKƏTLƏRİ VƏ SÖZ TƏQLİDİ



BİRGƏ VƏ SAĞLAM İCTİMAİ BİRLİYİ

Azercell


Birgə və
Sağlam İB
“Autizm portalı”
BİRGƏ VƏ SAĞLAM
İCTİMAİ BİRLİYİ
Azercell

# ÜZ HƏRƏKƏTLƏRİ VƏ SÖZ TƏQLİDİ



Tipik inkişaf göstərən uşaqlarda çox erkən dönəmlərdə ağız və üz hərəkətləri ilə ifadələrin və sözlərin təqlidi görülə bilir. Təqlid bacarığı bir uşağa sosial yaşam paylaşımını, qarşılıqlı bağlılıq duyğusunu və sosial münasibətdə olan şəxslər arasında ünsiyyət yaratmaqdadır. Autizmli uşaqlar üz hərəkətlərini, ifadələrini və sözləri təqlid edə bilməkdə ciddi çətinliklər yaşayırlar. Bu səbəbdən bu cür bacarıqların birbaşa öyrədilməsi gərəkdir.

Üz hərəkətlərinin və ifadələrinin tədrisinə, təməl insan hərkətlərini (xüsusiylə böyük motor hərəkətlərin təqlidi) təqlid bacarıqlarının tədrisi tamamlandıqdan sonra təlimat anlama bacarıqlarında müəyyən bir irəliləmə izləndikdən sonra başlanılması tövsiyyə olunur.

Siz övladınızla üz hərəkətlərinin və ifadələrinin təqlidini çalışacaqsınızsa, öncə ilk tədris günlərində yerdə və ya stulda uşaqla qarşı-qarşıya, üzünü uşağın üz səviyyəsinə yaxın şəkildə oturun. Üz hərəkəti və ifadəsi tədrisində xüsusi ilə başlanğıcda güzgü istifadə edilməsin uşağın etdiyi üz hərəkətini görməsi baxımından olduqca faydalıdır. Tədrisə üz hərəkətləriylə başlayıb, irəliləyən mərhələlərdə üz ifadələrinə keçin. Aşağıda üz hərəkətlərinin və ifadələrinin təqlidinin tədrisinin necə ediləcəyinə baxaq.



# ÜFÜRMƏ

Uşağın diqqətinin sizin üzərinizdə olduğu bir an neytral üz ifadəsiylə ağzınızı mümkün qədər az hərəkət etdirərək "Belə et" deyin. Sonra ağzınızı geniş açaraq qüvvətli bir şəkildə üfürün. Əgər uşaq narahat olacaqsa, uşağın üzünə doğru üfürməyin. Uşaq 4-5 saniyə içində təqdim olunan modeli təqlid etməzsə, "təkrar yoxlayaq" deyib yenidən cəhd edin. Əgər uşaq modeli təqlid edib üfürmə hərəkətini bir neçə cəhd sonrasında edə bilmirsə, öncə səs çıxaran bir alət və ya köpük üfürmək bacarığını öyrədə bilərsiniz. Üfürüləcək əşyanı bir neçə tanış olduğu əşya arasından seçməsi öyrənmə müddətini asanlaşdıracaqdır.



Uşaqla üzbəüz oturarkən köpüyü dodaqlarınızın önündə tutun və üfürərək uşağa model olun. Ardından "belə et" ya da "mənim kimi et" deyin və köpüyü üfürün. Uşaq köməksiz olar köpüyü üfürdükdən sonra sizin köpüksüz olaraq havaya üfürməyinizi model almasını istəyin. Əgər uşaq köpük üfürməyi sevmirsə, geniş bir qabın içinə qoyduğunuz lələk və ya kiçik kağız parçasını üfürməyi yoxlaya bilərsiniz.

Uşaq köməksiz olaraq köpüyü üfürdüyü hər cəhddən sonra bir yanıldıcı cəhd həyata keçirin. Uşağınızın öncədən bildiyi təqlid bacarıqlarından birini yanıldıcı cəhdlərdə istifadə edə bilərsiniz. Misal üçün əl çalaraq model olduğunuzda və "belə et"  təlimatı verdiyinizdə uşaq hərəkəti həyata keçirməyi öyrəndisə bu cəhdləri yanıldıcı cəhdlərinizdə istifadə edə bilərsiniz. Bu tətbiq aşağıda nümunə verildiyi formada həyata keçirilir:
Ana: Köpüyü üfürərək model olur və ardından "belə et"  deyir.
Həmzə: Köpüyü üfürür.
Ana : "Super üfürdün" deyir və dərhal əl çalarkən "belə et" deyir.
Həmzə: Əl çalır.
Ana : Köpüyü üfürərək model olur və ardından "belə et" deyir.
Həmzə: Köpüyü üfürür.
Ana : "Super üfürdün" deyir və mükafatını verir.

Uşaq üfümə bacarığı qazanma üçün tələbi qarşıladıqdan sonra ağız açmaq hərəkətlərinə keçə bilərsiniz. Bu hərəkətləri öyrədərkən üfürməyin ümumiləşdirmə çalışmalarını mütləq etməlisiniz. Misal üçün, mühit ümumiləşdirməsi üçün yerdə uşaqla qarşılıqlı oturaraq üfürmə çalışa bilərsiniz. İnsanlar arası ümumiləşdirmə üçün uşaqla işləyən insandan başqa insanla da üfürmə çalışıla bilər.

# AĞIZ AÇMAQ



Uşağın diqqətinin sizdə olduğu bir an neytral bir üz ifadəsiylə ağzınızı ola bildiyi qədər az hərəkət etdirib “belə et” deyin. Sonra ağızınızı geniş açın və 3-4 saniyə açıq tutun. Uşağın sizi təqlid etməsi üçün 3-4 saniyə gözləyin. Uşağın sizi təqlid etməsinə yardım etmək üçün əgər uşağınız narahat olmayacaqsa, fiziki ipucu verə bilərsiniz. Misal üçün, fiziki ipucu olaraq uşağın çənəsindən tutub aşağı doğru yavaşca çəkə bilərsiniz. Əgər uşaq bu bacarıqda irəliləmə göstərməzsə, uşağın sevdiyi peçenye və s. kimi yeyiləcək bir şeylə çalışamağa cəhd göstərin. Bu məqsədlə böyük bir peçenyeni öz ağzınıza yaxın tutun və “belə et” deyib peçenyedən bir parça dişləyin. Dərhal sonra uşağın peçenyesini də ağzına yaxın tutun və açmasını gözləyin. Uşaq ağzını açdığında peçenyedən dişləməsinə icazə verin. Uşaq rahatlıqla ağzını açacaq hala gəldikdən sonra öncə öz peçenyenizi ortadan qaldırıb yalnızca ağzınızı açaraq uşağa model olmağa başlayın.
Növbəti mərhələdə isə uşağın peçenyesini ortadan qaldırın və peçenyeni ağız açmaq bacarığının mükafatı olaraq istifadə edin.

Çalışılan uşaq iki bacarığın qarışdırmalarına başlamadan öncə tək-tək çalışılan bacarıqları bütün tövsiyələri yerinə yetirməyinizə rəğmən qazanmaqda çətinlik çəkirsə, bu bacarıqları daha sonra öyrədilmək üzərə ertələyə bilərsiniz.



Yuxarıda üfürmə çalışmalarında olduğu kimi uşaq yardımsız olaraq ağız açma hərəkətlərini  yerinə yetirdiyi hər cəhddən sonra bir yanıldıcı cəhd etməyi unutmayın.

# DİL ÇIXARMAQ BACARIĞI

Dil çıxarmağı təqlid etməkdə çətinlik çəkən uşaqların top şəkər (şirinquş kimi) bir şeyi yalamasını təmin edin. Uşaqla qarşılıqlı stullarda üzbəüz oturarkən top şəkərinizi əlinizə alın və "belə et" deyərək dilinizlə şəkəri yalayın. Dərhal ardından uşağın top şəkərini ağzına yaxın bir məsafədə tutun, ya da dodaqlarına yavaşca toxundurun. Uşaq dilini çox az çıxarıb top şəkərə toxunsa belə mütləq onu mükafatlandırın. Uşağın dilini hər dəfə bir az daha çox çıxarması və top şəkəri yalaması baş verərsə, mükafatlandırmanı öncəkinə nisbətdə artırın. Uşaq tam dilini çıxarıb da top şəkəri yaladığında öncə öz yaladığınız, sonra da uşağın yaladığı top şəkəri ortadan qaldırın.

Bütün mərhələləri tamamladıqdan sonra yeni bacarıqlarla çalışmağa başlaya bilərsiniz. Üz hərəkətləri və ifadələrinə bağlı yeni bacarıqlar aşağıda qeyd olunmuşdur. Ən çox 7-8 bacarığı birlikdə çalışdıqdan və uşağınız hər cəhddə doğru reaksiya verdikdən sonra üz hərəkətlərinin təqlidinin tədrisini tamamlaya bilərsiniz.



**Yeni bacarıqlar:**
- Dodaqları birləşdirmə
- Alt dodağı dişləmə
- Üst dodağı dişləmə
- Dişləri bir-birinə vurma
- Öskürmə
- Gülmə
- Başı iki tərəfə yelləmə (xeyr)
- Başı aşağı-yuxarı yelləmə (bəli)
- Xoşbəxt, üzgün, əsəbi, təəccüblü və s. üz etmək

# DƏYƏRLƏNDİRMƏK

Uşağın exolaliya bacarıqlarını dəyərləndirmək üçün ətrafınızda heç vəsait və ya əşya olmadığından əmin olun və uşağı qarşınızda oturdun. Dəyərləndirmədə öncə  sadə səslər seçin, misal üçün, “De, ma”, “De, ba” kimi. Əgər uşaq sadə səsləri təkrarlasa, “De, top”, “De, daş “ kimi tək hecalı sözlərə keçin. Buradan çox hecalı sözlərə və sonra da cümlələri dəyərləndirin.

Hələlik exolaliya davranışının əks-səda (exo) bənzədiyini yadınızda saxlamağınız kifayətdir. Exo etməyin təşviqedici başqa birinin sözlü davranışını, yəni bir sözü söyləməsi; davranış isə uşağın bu sözü təkrar etməsidir. Əks-səda etməkdə kontrolu əldə saxlamaq önəmli addımlardan biridir, dilin qapılarını həqiqətən də aça bilər və öyrənmə qabiliyyətini də artırar.
Autizmli uşaqların əksəriyyəti bu bacarığa sahib deyildir, bəzən də dərhal hər şeyi təkrarlayarlar, əgər elədirsə, yüzlərlə sözü dəyərləndirməyə ehtiyac yoxdur. Bunun yerinə uşağın sadə səsləri (ma, ba, du) çıxarma bacarığını dəyərləndirin, ardından tək hecalı sözlərə keçin (top, quş), ardından isə çox hecalı sözləri və sonda cümlələri
dəyərləndirin.



Nümunə 2
Ana : Həmzəni üzbəüz yelləncəklə yellədərkən birdən yelləncəyi dayandırır.
Həmzə: “A..” (məni yellət anlamında istək bildimə)
Ana: “A, A...” deyib, yelləncəyi yellədir. Parkdan uzaqlaşarkən “De , A..” deyir.
Həmzə: “A..,” deyir.
Ana: “A..,” deyir və Həmzəni yelləncəyə geri aparıb bir müddət yellədir.

Nümunə 3
Ana: Həmzəyə ən sevdiyi meyvə suyunu göstərir.
Həmzə: “Meyvə suyu” (istək bildirmə).
An : “Meyvə suyu” deyib, bir qurtum içməsi üçün ona doğru uzadır və sonra meyvə suyunu arxasında gizlədib, “De, meyvə suyu” deyir.
Həmzə : “Meyvə suyu” deyir.
Ana: “Meyvə suyu” gəldi deyib Həmzəyə doğru uzadar.

Ayrıca mükafat özəlliyi daşımayan əşyaların şəkilləriylə başqa bir transfer üsulu da tətbiq edə bilərsiniz. Bu üsulda uşaqla birlikdə şəkilə baxarkən baxdığınız şəklin (şəkildəki əşyanın adı) exolaliyasını edib, sonra kartı tərs çevirib və ya örtüb təkrarlaya bilərsiniz.

# TƏDRİS

Uşağa söylədiyiniz şeyi təqlid etməyi öyrətmək əksər hallarda dilin təməlini qoyur. Exo edə bilən və edən bir uşağın əks-sədalı ipucuna reaksiya vermək ehtimalı daha yüksəkdir.

Exolaliyanın təşviqedicisi sadəcə sözlü bir stimul ola bilər, buna görə də etibarlı bir əks-səda reaksiyası almaq üçün əşyanın nə özünün, nə də şəklinin göz qabağında olmaması məqsədə uyğundur. Övladınızın exolaliya bacarığını dəyərləndirmək məqsədiylə “de, top” dediyiniz zaman ortada gözə dəyən top olmamalıdır.

Övladınızda əks-səda bacarığı yoxdursa, bu bacarığı inkişaf etdirmək üçün sistematik şəkildə təlimə ehtiyac duyacaqdır. Bütün bacarıqların qazanılmasında eyni prosseslər var, bunlar ipucu vermək, ipucunu seyrəkləşdirmək və xəta düzəltmək şəklində sıralanır. Məqsəd gərəkli bir exo reaksiyadır, amma başlanğıc səviyyədə olan uşaqlar üçün tədris “istək bildirmək modeli” içində başlamaq ən yaxşı nəticələri verir. Bəlkə də siz övladınıza sözlərinin əks-səadsını o mükafatları istəyərkən çoxdan uğur qazanmısınız.

Mükafat xüsusiyyəti daşıyan əşyalarınız əlinizin altında deyilsə, uşağınızı qarşınıza oturdub onunla exo çalışmaları edə bilərsiniz, amma belə etsəniz böyük ehtimalla problem davranışlara və çalışmağa qarşı istəksiz olmasına səbəb olacaqsınız. Bunun yerinə transfer üsulları istifadə edərək ona kömək etməyə çalışın.

Aşağıda exo transferinə nümunələr vardır:

**Nümunə 1**

Ana: Köpük hazırdır.
Həmzə: “Köpük” ( stək bildirmək)
Ana: “Köpük” dedikdən sonra köpüyü üfürür və sonra köpük olan qabı masanın altına qoyub təkrar “de köpük” deyir.
Həmzə: “Köpük” deyir.
Ana: “Köpük”, “Köpük gəldi” deyib qoyduğu yerdən götürüb üfürər.

**Nümunə 2**

Ana : Həmzəni üzbəüz yelləncəklə yellədərkən birdən yelləncəyi dayandırır.
Həmzə: “A..” (məni yellət anlamında istək bildimə)
Ana: “A, A...” deyib, yelləncəyi yellədir. Parkdan uzaqlaşarkən “De , A..” deyir.
Həmzə: “A..,” deyir.
Ana: “A..,” deyir və Həmzəni yelləncəyə geri aparıb bir müddət yellədir.

**Nümunə 3**
Ana: Həmzəyə ən sevdiyi meyvə suyunu göstərir.
Həmzə: “Meyvə suyu” (istək bildirmə).
An : “Meyvə suyu” deyib, bir qurtum içməsi üçün ona doğru uzadır və sonra meyvə suyunu arxasında gizlədib, “De, meyvə suyu” deyir.
Həmzə : “Meyvə suyu” deyir.
Ana: “Meyvə suyu” gəldi deyib Həmzəyə doğru uzadar.

Ayrıca mükafat özəlliyi daşımayan əşyaların şəkilləriylə başqa bir transfer üsulu da tətbiq edə bilərsiniz. Bu üsulda uşaqla birlikdə şəkilə baxarkən baxdığınız şəklin (şəkildəki əşyanın adı) ex-olaliyasını edib, sonra kartı tərs çevirib və ya örtüb təkrarlaya bilərsiniz.

Exolaliya edə bilməsi böyük ehtimalla tələffüzü də inkişaf etdirəcəkdir, əsasən də övladınızla üzbəüz oturub ağız hərəkətlərinizi izləyə bilməsini təmin etmisinizsə, nəticə daha da uğurlu olacaqdır. Sözü aramla deməyiniz və ya sözdəki səsləri iri hissələr halında vurğularkən üz hərəkətlərinizi şişirtməyiniz tələffüzün yaxşılaşmasına kömək edəcəkdir.